*Cari ilin doqquz ayının yekunları*

# GÖYGÖL: DİNAMİK VƏ DAVAMLI İNKİŞAF YOLUNDA





Göygöl Rayon İcra Hakimiyyətinin, YAP Rayon Təşkilatı nümayəndələrinin, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, xidmət sahələri rəhbərləri, bələdiyyələrin iştirak etdiyi toplantıda 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr müzakirə olunmuşdur. İclası **Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov** açaraq, respublikada gedən sürətli və innovativ inkişafdan, rayonda aparılan abadlıq-quruculuq və möhtəşəm layihələrin icrasından ətraflı danışmışdır. Qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində son illərdə dünyada baş verən dərin siyasi və iqtisadi böhranlara baxmayaraq, ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, əhalinin ümumi rifah halı yaxşılaşmışdır.

2015-ci ilin 9 ayı ərzində Göygöl rayonunda sosial obyektlərin tikintisi, abadlıq-quruculuq işlərinin aparılması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmiş, iqtisadiyyatın dinamik inkişafı təmin olunmuşdur.

Rayonda 2015-ci ilin 9 ayı ərzində 514 yeni iş yerləri açılmışdır ki, bunun da 423-ü daimidir.

2015-ci ilin 9 ayında iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 97 milyon 407,6 min manat, ondan 57 milyon 501,8 min manatı (59,0 %) istehsal sahələrini, 39 milyon 905,8 min manatı (41,0 %) xidmət sahələrini təşkil etmiş, adambaşına 1571,1 manat dəyərində məhsul istehsal edilmişdir.

Aqrar sahənin inkişafına yönəldilmiş Dövlət proqramlarının müvəffəqiyyətlə həyata keçirilməsi üçün ölkə rəhbərliyi tərəfindən yaradılmış əlverişli şəraitin nəticəsi olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarının traktor, kombayn, digər kənd təsərrüfatı maşın və avadanlıqları ilə, toxum, gübrə və pestisidlərlə təminatı yaxşılaşdırılmışdır.

2016-cı ilin məhsulu üçün 134,4 hektar sahədə payızlıq səpin aparılmış, səpin işləri davam etdirilir.

Heyvandarlıq inkişaf etmiş, iribuynuzlu mal-qaranın sayı 20 633 başa, xırdabuynuzlu mal-qaranın sayı 167 596 başa çatmışdır.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə süd istehsalı 274,5 ton, ət istehsalı 62,2 ton, yun istehsalı 2,1 ton, yumurta istehsalı 3 min 900 ədəd artmışdır.

Kənd təsərrüfatı heyvanları arasında aparılan baytarlıq profilaktiki tədbirlər nəticəsində kütləvi yoluxucu xəstəliklər baş verməmiş, epizootik vəziyyət sabit olaraq qalmışdır.

Əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə 158 ədəd subartezian quyusu, qapalı boru şəbəkəsinin 4,0 km hissəsi təmir edilmiş, 5 ədəd subartezian quyusu yenidən bərpa olunmuş, Balçılı və Xaqani kəndlərinin hər birində 2, Quşqara kəndində 3, Sərkarlı kəndində və Bəhrəmbağ qəsəbəsində 1 ədəd subartezian quyusu qazılmışdır.

Daşqınların qarşısını almaq məqsədilə çay məcrasında 193 min kubmetr həcmində təmizləmə işləri görülmüşdür.

Rayonda hazırda fəaliyyət göstərən 18 sənaye müəssisələri tərəfindən bütövlükdə 9 milyon 473,9 min manat dəyərində sənaye məhsulu istehsal edilmiş, sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi 38,0 % olmuşdur.

Poçt və rabitə müəssisələri tərəfindən müəssisə və təşkilatlara, eləcə də əhaliyə faktiki qiymətlərlə 666,3 min manatlıq xidmət göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 62,0 min manat (10,1 %) çoxdur.

2015-ci ilin 9 ayı ərzində 1028 ailə olmaqla 4612 nəfərə 1389,7 min manat məbləğində ünvanlı sosial yardım verilmişdir.

Qarabağ Müharibəsi və Çernobl əlillərinin 116 uşağına 15,2 min manat müavinət, əmək və sosial pensiyaçılara 12 milyon 419,4 min manat pensiya və müavinət ödənilmiş, 84 nəfər tənha və əlillərə evində sosial məişət xidməti göstərilmişdir.

Əhalinin məşğulluğunu təmin etmək və sosial müdafiəyə ehtiyacı olan vətəndaşların sosial müdafiəsini gücləndirmək məqsədilə 2015-ci ilin 9 ayı ərzində 331 nəfər iş axtaran Məşğulluq Mərkəzində qeydiyyata alınmış, onlardan 231 nəfəri münasib iş yerləri ilə təmin olunmuşdur.

Rayonda "Əmək yarmarkası" keçirilərək 168 iş yeri müəyyənləşdirilmiş, 44 nəfər özlərinə münasib iş yeri tapmışdır.

2015-ci ilin 9 ayında Dövlət Proqramının icrası ilə bağlı Göygöl şəhərinin Mir Cəlal Paşayev və Həsən bəy Zərdabi küçələrinə 12109 kvadratmetr, səkilərə 6317 kvadratmetr asfalt örtük salınmış, 3127 metr su ötürücü arxlar və 497 metr səki daşları düzülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ayırdığı vəsait hesabına 5 min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Yeni Zod - Çaykənd - Qarabulaq - Quşçu - Sarısu avtomobil yolunun yenidən qurulması ilə bağlı layihə-smeta sənədləri əsasında nəzərdə tutulmuş 15,1 km yola asfalt örtük salınmışdır.

Əhalinin elektrik enerjisi təminatını və qaz təchizatını yaxşılaşdırmaq məqsədilə 2015-ci ilin 9 ayında elektrik təsərrüfatında 127,9 min manat dəyərində təmir-bərpa, quraşdırma işləri aparılmış, 87 ədəd müxtəlif güc transformatorları təmir edilmiş, 16,6 km elektrik veriliş xətti və qəza vəziyyətində olan 138 ədəd elektrik dayaqları və 16 ədəd müxtəlif güc transformatorları yenisi ilə əvəz olunmuşdur.

Rayonun Sarısu, Quşçu və Qarabulaq kəndlərində hava elektrik verilişi xətləri özünüdaşıyan izolyasiyalı naqillərlə əvəz olunmasına başlanılmış, hazırda Sarısu kəndində 370 ədəd dayaq basdırılaraq 4,6 km uzunluğunda xətt çəkilmişdir.

Rayonun şəhər, qəsəbə və kəndlərində yeni salınmış yaşayış massivində 69 təsərrüfatı təbii qazla təmin etmək üçün 3200 metr uzunluğunda daşıyıcı və paylayıcı qaz xətti çəkilmiş, istismarda olan müxtəlif diametrli qaz xətlərinin korroziyaya uğrayan 933 metr hissəsində təmir-bərpa işləri görülmüşdür.

Rayonda 41 kitabxana, 30 klub tipli müəssisə, 2 muzey, 2 musiqi məktəbi, 32 yerli əhəmiyyətli tarixi abidə vardır. 2015-ci ilin 9 ayında 1196 nüsxə kitab alınaraq kitab fondu 309004, elektron kataloq kitab fondu isə 814 nüsxəyə çatdırılmışdır.

İmtiyazlı xəstələrə dərmanlar alınaraq pulsuz paylanılmış, yoluxucu xəstəliklərə qarşı 5479 nəfər peyvənd edilmişdir.

Əhali arasında idmanın kütləviliyinin artırılmasına diqqət artırılmış, 3 klub, müxtəlif idman növü üzrə 292 bölmə təsis edilmiş, 2951 gənc idmana cəlb olunmuşdur. Yeni istifadəyə verilmiş Olimpiya İdman Kompleksində 9 idman növü üzrə 12 bölmə təşkil olunmuş, 101 gənc məşqlərə cəlb edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına, eyni zamanda quruculuq-abadlıq işlərinin aparılmasına göstərdiyi diqqət və qayğının nəticəsi olaraq rayonda mövcud olan problemlərin aradan qaldırılması istiqamətində tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

Çıxışının sonunda Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov tam əminliklə bildirdi ki, qədirbilən Göygöl sakinləri möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək, dövlətçiliyimizin möhkəmlənməsi, xalqımızın rifahının daha da yaxşılaşması, sabitliyin qorunması naminə əzmlə çalışacaq, çiçəklənmiş Azərbaycan uğrunda bütün imkanlarını səfərbər edəcəklər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**